# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2004-cü il 16 iyul tarixli 97 nömrəli, "Ədəbiyyat və incəsənət əsərlərinin sifariş əsasında yaradılmasına, onların ilk kütləvi ifa və ya nümayiş hüququnun alınmasına görə müəllif qonorarının, yubiley, dövlət tədbirləri və xüsusi təyinatlı konsert proqramları üçün yaradıcı heyət və ifaçılara ödənilən haqqın minimum miqdarının və verilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2006-cı il 16 fevral tarixli 52 nömrəli, "Filmlərin yayımı və nümayişi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2006-cı il 6 iyul tarixli 165 nömrəli, "Qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış, muzeylərdə və qanunvericiliklə müəyyən edilmiş digər yerlərdə saxlanılan əşyaların ekspertizasının keçirilməsi halları və Qaydaları"nın təsdiq edilməsi haqqında" 2006-cı il 26 sentyabr tarixli 219 nömrəli, "İnzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2007-ci il 28 avqust tarixli 136 nömrəli və "Teatrlara "akademik" və "milli" statusunun verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2008-ci il 7 mart tarixli 67 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 20 aprel tarixli 4 nömrəli Sərəncamının 2.5-ci bəndinin, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının 5.2-ci bəndinin və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanının

4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 16 iyul tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 588; 2006, № 5, maddə 463; 2007, № 10, maddə 1013; 2009, № 1, maddə 32; 2018, № 8, maddə 1817) ilə təsdiq edilmiş "Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci bənddə "Mədəniyyət və Turizm Nazirliyi" sözləri "Dövlət Turizm Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə əvəz edilsin;

1.2. 1.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.4. Turist ekskursiya xidmətlərinin sertifikatlaşdırılması Agentliyin akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumu və ya akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən aparılır. Bu uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.";

1.3. 2.1-ci, 2.2-ci, 2.3-cü bəndlərdə, 2.7-ci bəndin altıncı abzasında və 3.3-cü bənddə ismin müvafiq hallarında "Mədəniyyət və Turizm Nazirliyi" sözləri ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin.

2. "Ədəbiyyat və incəsənət əsərlərinin sifariş əsasında yaradılmasına, onların ilk kütləvi ifa və ya nümayiş hüququnun alınmasına görə müəllif qonorarının, yubiley, dövlət tədbirləri və xüsusi təyinatlı konsert proqramları üçün yaradıcı heyət və ifaçılara ödənilən haqqın minimum miqdarının və verilməsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 16 fevral tarixli 52 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 200; 2018, № 12 (II kitab), maddə 2735) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissədən "və Turizm" sözləri çıxarılsın;

2.2. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Dram, musiqi, musiqili-dram və ədəbi əsərlərin sifariş əsasında yaradılmasına və ya nəşr olunmamış bu tipli əsərlərin ilk kütləvi ifa hüququnun alınmasına görə müəllif qonorarının verilməsi Qaydaları"nın 6-cı hissəsindən "və Turizm" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 iyul tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 633; 2008, № 3, maddə 239; 2016, № 9, maddə 1562; 2020, № 3, maddə 370) ilə təsdiq edilmiş "Filmlərin yayımı və nümayişi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissədən və 16-cı hissənin ikinci cümləsindən "və Turizm" sözləri çıxarılsın;

3.2. həmin Qaydalara Əlavə - "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi YAYIM VƏSİQƏSİ"nin adından və mətnindən "və Turizm" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 sentyabr tarixli 219 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 832; 2009, № 4, maddə 282) ilə təsdiq edilmiş "Qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış, muzeylərdə və qanunvericiliklə müəyyən edilmiş digər yerlərdə saxlanılan əşyaların ekspertizasının keçirilməsi halları və Qaydaları"nın 4-cü hissəsindən "və Turizm" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293, № 8, maddələr 674, 675, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 2, maddələr 146, 161, № 11, maddə 1040; 2011, № 1, maddə 54, № 5, maddə 447, № 9, maddə 855; 2012, № 5, maddə 475, № 8, maddə 817, № 10, maddə 1028, № 11, maddə 1204, № 12, maddələr 1363, 1388; 2013, № 1, maddə 73, № 8, maddələr 1015, 1038, № 10, maddə 1219; 2014, № 1, maddə 69, № 3, maddə 312, № 6, maddə 736, № 7, maddə 918, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 612, № 6, maddə 799, № 11, maddə 1413; 2016, № 2 (II kitab), maddə 381, № 4, maddələr 781, 831, № 5, maddə 955, № 7, maddə 1342, № 8, maddələr 1439, 1450, № 9, maddələr 1583, 1585, 1588, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 283, 295, 310, № 5, maddə 972, № 8, maddə 1610, № 10, maddə 1920; 2018, № 2, maddə 335, № 3, maddələr 577, 626, № 7 (II kitab), maddə 1654, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 159, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5,

maddələr 944, 972, № 12, maddələr 2064, 2068; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 7, maddə 1005) ilə təsdiq edilmiş “İnzibati orqanların Təsnifatı”nın II bölməsinin 11-ci hissəsindən (hər iki halda), 11.1-ci, 11.2-ci bəndlərindən “və Turizm” sözləri, 11.3-cü bəndindən “və turizm” sözləri çıxarılsın və həmin bölməyə aşağıdakı məzmunda 11-1-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 11-1. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi<br>Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti |
| 11-1.1. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin: |
| 11-1.1.1. | regional turizm idarələri |

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 67 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 236) ilə təsdiq edilmiş “Teatrlara “akademik” və “milli” statusunun verilməsi Qaydası”nın 1-ci hissəsinin üçüncü abzasından, 4.1-ci bəndinin birinci abzasından, 4.2-ci və 4.3-cü bəndlərinin birinci cümlələrindən, 4.4-cü bəndindən “və Turizm” sözləri çıxarılsın.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 26 oktyabr 2020-ci il

№ 423